**Kino aləmində**

# "İtkin" film tapıldı

**Bu yaxınlarda Azərbaycan Dövlət Film Fondunda Əməkdar artist, teatr və kino aktrisası Ətayə Əliyevanın 105 illiyi münasibətilə yazılmış "Bir ömürlük xatirə" kitabının (müəllif Rəhilə Soltanqızıdır) təqdimatı keçirilirdi. Mərasimdə mərhum sənətkarın haqqında danışılan xatirələrlə, göstərilən videoçarxlarla bərabər, illərdən bəri itkin düşmüş qısametrajlı bir film də nümayiş etdirildi. 1963-cü ildə çəkilmiş həmin filmdə Ətayə Əliyeva da oynayıbmış.**

Söhbət geniş tamaşaçı kütləsinə çox az məlum olan "Axırıncı namaz" filmindən gedir. Yubiley mərasiminin iştirakçıları sözügedən filmdə Ətayə Əliyeva (Xeyransa) ilə bərabər, məşhur aktyorlar Ağadadaş Qurbanov (Molla Müştəba), Möhsün Sənani (Şahbala), Münəvvər Kələntərli (burada ifa etdiyi Qoca arvad rolu onun ekranda son işi olub, həmin il vəfat edib) və digərlərinin yadigar kadrlarını böyük maraqla izlədilər.



"Azərbaycanfilm" kinostudiyasında istehsal edilmiş bu dramın rejissoru Zeynəb Kazımova, operatoru Əsgər İsmayılov, rəssamı Məmmədağa Hüseynov, bəstəkarı Zakir Bağırov olub. Dövlət Film Fondunda Zeynəb Kazımovanın 110 illik yubileyinə hazırlıq tədbirləri zamanı aşkarlanıb ki, 1968-ci ildə Moskvada çap edilmiş "Sovet bədii filmləri. Annotasiyalı kataloq"un 4-cü cildində yazıldığına görə, kinorejissor həmin adda ikihissəli qısametrajlı bədii film çəkibmiş. Axtarışa başlanıb və ekran əsərinin yeganə nüsxəsi Naxçıvan Dövlət Film Fondunun bazasından tapılaraq, Bakıda elektronlaşdırılıb. Qəribəsi budur ki, ötən onilliklərdə "Axırıncı namaz"ın adına



Azərbaycanda kino haqqında hazırlanmış heç bir kataloq və ya siyahıda rast gəlinməyib.

Cəhalətin tənqidi və fırıldaqçı mollaların ifşası mövzusunda olan dram cəmi 17 dəqiqədən ibarətdir. Tacirlik edən əri Şahbalanın yetim bir qızı qaçırıb onun üstünə günü gətirməsini istəməyən Xeyransa kələkbaz Molla Müştəbadan dua yazmasını istəyir. O isə həm Xeyransa üçün dua yazıb nəzir-niyazını alır, həm də şorgöz tacirin xahişi ilə onun üçün Səriyyə ilə saxta kəbin kəsir. Əvəzində isə sövdələşirlər ki, mollanın camaatdan aldığı qənd, çay və digər nəzirlər Şahbalanın dükanında "xırıd" edilsin. Mollaya qulluqçuluq edən qohumu Şəmsiyyə bunu kənd camaatına xəbər verir və fırıldaqçılar ifşa olunub gülüş hədəfinə çevrilirlər...

**P.S:** Qeyd edək ki, bu il unudulmaz aktrisa Ətayə Əliyevanın 105 yaşı tamam olur. Onun iştirakı ilə çəkilmiş "Axırıncı namaz" qısametrajlı bədii filminə isə oxucularımız populyar "YouTube" internet platforması vasitəsi ilə baxa bilərlər.

***Ə.NƏCƏFXANLI***
***XQ***